***MusaYaqub***
***Dağlar, məni qəbul edin***

Ömrüm, günüm, salam, salam!..
Gəlmişəm ki, sizdə qalam.
A xeyirxah, müdrik anam
Dağlar, məni qəbul edin.

Öz-özümə yadlanmayım,
Sizə dönük adlanmayım.
Mənim hörmət, izzət payım
Dağlar, məni qınamayın.

Dumanından qoy gizlənim,
Küləyində əzizlənim.
Yağışında təmizlənim,
Dağlar, məni qəbul edin.

Ey ulduzu, ayrı olan,
Günəşə sərpayı olan,
Buluda çarpayı olan
Dağlar, məni qəbul edin.

Göy qüdrətli, yer zəhmətli,
Yağlı, südlü, səxavətli,
Dağlar, məni qəbul edin.

Bu elə sirdaş olmağa
Çiçəyində yaş olmağa,
Qayada bir daş olmağa
Dağlar məni qəbul edin.

Bulud karvan, zirvə sarvan,
Suyu dərman, döşü əlvan,
Ğmrə sultan, səbri ümman
Dağlar, məni qəbul edin.

Zülmətində çırağanam,
Sükutunda sorağınam,
Bir nəğməli bulağınam,
Dağlar, məni qəbul edin.

1974

***Yaqub M. Dağlar məni qəbul edin // Bu dünyanın qara daşı göyərməz. – Bakı: Azərnəşr, 2007. – S. 229-230.***